

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
**Ümummilli Lider HEYDƏR ƏLİYEV**

BDU

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti 30 sentyabr 2020-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR


BDU-da millət vəkili Hicran Hüseynova ilə onlayn görüş keçirilib səh. 3

BDU-da Müqayisəli hüquq araşdırmaları mərkəzi yaradılacaq səh. 3

BDU ölkədə təhsil islahatlarının həyata keçirilməsində önəmli rol oynayır səh. 4

Maskalı "Gənc istedadlar" BDU-da səh. 4

BDU Fransa Lyon Universiteti ilə birgə ikili diplom proqramını həyata keçirəcək səh. 5

Tələbə Nəzarət Qrupu yeni tədris ilindən danışdı səh. 8




**Mir Cəlal Paşayevin anım günüdür**

→Səh.2



**Akademik Rəfiqə xanım Əliyevanın anadan olmasının 88-ci ildönümüdür**

→Səh.3



**Rektor Enactus Azərbaycan Milli Yarışının qalib komandası ilə görüşüb**

→Səh.3



**Müharibə illərinin ən gənc rektoru**

→Səh.6

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müraciəti

***-Əziz müəllimlər, tələbələr, şagirdlər.***

Mən sizi yeni dərs ili münasibətilə ürəkdən təbrik edirəm. Bu il yeni dərs ili yeni şəraitdə, pandemiya dövründə başlayır. Bunu nəzərə alaraq, yeni dərs ili yeni formatda təşkil ediləcəkdir. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, Azərbaycan xalqını bu bəladan qoruyaq və qəbul edilmiş bütün qərarlar bu məqsədi güdür.

Bildirməliyəm ki, Azərbaycan pandemiyanın ilk günlərindən çox operativ, çevik addımlar ataraq xalqımızı böyük bəladan qurtara bilmişdir. Bildiyiniz kimi, mart ayının əvvəlindən məktəblər, ali məktəblər, bütün təhsil müəssisələri bağlandı və bunun əsas məqsədi uşaqları, yeniyetmələri xəstəlikdən qorumaq idi. Təbii ki, bu, təhsil sahəsinə mənfi təsir göstərmişdir. Ancaq hesab edirəm ki, biz görülmüş tədbirlər nəticəsində pandemiyanın təhsilə olan mənfi fəsadlarının böyük hissəsini aradan qaldıra bildik. Əminəm ki, yeni şəraitdə başlanan dərs ili uğurlu olacaq, bizim şagirdlərimiz, tələbələrimiz yaxşı biliklər alacaqlar, müəllimlər də öz vəzifə borcunu şərəflə yerinə yetirəcəklər.

Biz hazırda postpandemiya dövrünə hazırlaşırıq. Əlbəttə ki, peyvənd icad olunandan sonra artıq biz deyə bilərik ki, bu dövr arxada qalıbdır. Bildiyiniz kimi, Azərbaycan peyvəndin ölkəmizə gətirilməsi ilə əlaqədar bir neçə şirkətlə danışıqlar aparır. Əlbəttə ki, əldə ediləcək peyvənd bütün sınaq mərhələlərindən keçməlidir və eyni zamanda, beynəlxalq sertifikatlar almalıdır. Daha sonra peyvənd Azərbaycana gətiriləcək və əminəm ki, ondan sonra biz normal, adi həyata qayıda bilərik, o cümlədən təhsil sahəsində ənənəvi tədris prosesi bərpa olunacaqdır.

Biz pandemiyanın fəsadlarına, iqtisadi tənəzzülə, neft gəlirlərimizin azalmasına baxmayaraq, məktəb tikintisini, ali məktəblərin tikintisini davam etdirdik, eyni zamanda, bir dənə də sosial layihə ixtisar edilməmişdir. Bildiyiniz kimi, biz keçən il və bu il vətəndaşlara böyük sosial paket təqdim etdik. Bu il 5 milyona yaxın Azərbaycan vətəndaşı dövlət tərəfindən dəstəkləndi və bu dəstək bu gün də davam etdirilir.

Məktəb tikintisi ilə bağlı deyə bilərəm ki, bu il 147 məktəbin tikintisi nəzərdə tutulur. Onların böyük hissəsi artıq hazırdır və Bilik Gününə hazır vəziyyətə gətirilibdir. Bir neçə məktəbin açılışı bu ilin sonuna qədər nəzərdə tutulur. Onu da bildirməliyəm ki, 147 məktəbin 45-i Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilibdir. Artıq 17 ildir ki, Heydər Əliyev Fondu bu sahədə çox böyük işlər görür. Bildiyiniz kimi, Azərbaycanda yeni məktəblərin tikintisinin geniş vüsət alması Heydər Əliyev Fondu tərəfindən başlanmış "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində həll olunmuşdur.

Son 2-3 il ərzində biz kiçik kəndlərdə modul tipli məktəblər inşa edirik. Bu il modul tipli 60 məktəbin tikintisi təmin edilir və ediləcəkdir. Beləliklə, cəmi bir il ərzində 150-yə yaxın məktəb tikilir və əsaslı təmir edilir. Bildirməliyəm ki, son 17 il ərzində bütövlükdə Azərbaycanda 3700-ə qədər məktəb tikilib və əsaslı şəkildə təmir edilib. Bu, bizim məktəb fondumuzun böyük əksəriyyətini təşkil edir. Çünki Azərbaycanda hazırda 4500-ə qədər məktəb var, onların 3700-ü tam yeni görkəm almışdır və yenidən inşa edilmişdir.

Bu il, eyni zamanda, ali məktəblərin korpuslarının tikintisi təmin edilmişdir. İyun ayında Gəncədə Dövlət Aqrar Universitetinin yeni tədris korpusu mənim iştirakımla istifadəyə verilmişdir. Bu korpusun sahəsi 22 min kvadratmetrdir.



Sentyabr ayında isə Azərbaycan Dövlət İqtisad Universitetinin yeni korpusu. Bu korpusun sahəsi 13 min kvadratmetrdir. ADA-nın yeni iki korpusu istifadəyə verilmişdir və bu korpusların sahəsi 35 min kvadratmetrdir. Beləliklə, cəmi bir il ərzində üç ali məktəbin 70 min kvadratmetr sahəsi olan yeni korpusları tikilib. Təbii ki, bu, böyük vəsait tələb edir və biz bu vəsaiti ayırırıq. Çünki təhsilə ayrılan vəsait gələcəyə ayrılan vəsaitdir. Mən hələ 2004-cü ildə demişdim ki, biz "qara qızıl"ı insan kapitalına çevirməliyik və bunu əldə etmişik. Çünki son illərdə Azərbaycanda nəinki təhsilin maddi-texniki bazası möhkəmlənib və bu gün bizim bütün ali məktəblərimiz təmirli binalarda yerləşir, eyni zamanda, təhsilin keyfiyyəti artır. Bu, çox vacib məsələdir və biz bunu müxtəlif sahələrdə görürük. Bizim məktəblilərimiz beynəlxalq olimpiadalarda yüksək yerlər qazanırlar, olimpiadaların qalibləri olurlar. Deyə bilərəm ki, müəllim peşəsinə maraq bərpa olunub və artır, bu da özünü rəqəmlərdə göstərir. Müəllim peşəsini seçən gənclərimizin sayı hər il artmaqdadır. Qəbul imtahanlarında yüksək bal toplamış bir çox gənclərimiz müəllim olmaq istəyirlər.

**Ardı səh. 2**



**Yay semestrinin onlayn dərsləri: yaxşı nədir, pis nədir?**

→Səh.5



**Hardan başlanır vətən-ordumuzun uğurları**

→Səh.7

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müraciəti

*əvvəli səh. 1-də*

Çünki müəllimlərin iş şəraiti yaxşılaşıbdır, müəllimlər gözəl məktəblərdə, ali məktəblərdə dərs deyirlər, müəllimlərin əməkhaqları artırılıb və diaqnostik qiymətləndirmədən keçən müəllimlərimiz yüksək maaş alırlar. Əlbəttə ki, bu, gənclərimizin müəllim olmaq istəyini əsaslandırır, eyni zamanda, müəllim peşəsi bütün dövrlərdə Azərbaycanda ən hörmətli peşələrdən biri olmuşdur. Mən çox şadam ki, bu gün biz bu peşənin prestijini bərpa edirik və bu, eyni zamanda, gələcəkdə Azərbaycanda bilikli, savadlı insanların sayının artmasına gətirib çıxaracaq. Çünki müasir dünyada hər bir ölkənin uğurlu inkişafını onun intellektual potensialı müəyyən edəcəkdir, bu, şübhəsizdir. Sadəcə olaraq, inkişaf etmiş ölkələrin təcrübəsinə baxmaq kifayətdir və sual vermək lazımdır, bu ölkələr nəyin hesabına inkişaf etmiş ölkələr sayılır. Məhz biliyin, savadın, texnologiyaların hesabına. Bu gün dünya üçün yeni texnologiyaları təqdim edən, icad edən ölkələr inkişaf etmiş ölkələrdir və bu ölkələrin bir çoxunda təbii resurslar yoxdur. Ona görə, hər bir ölkənin inkişafı onun təbii resursları ilə ölçülmür və gələcəkdə bu, özünü daha da qabarıq şəkildə büruzə verəcək. Odur ki, təhsilə qoyulan vəsait hər bir ölkənin gələcəyinə, müstəqilliyinə, təhlükəsizliyinə qoyulan vəsaitdir. Təsadüfi deyil ki, Azərbaycanda büdcə xərcləri arasında təhsil sahəsinə ayrılan xərclər ikinci yerdədir. Əgər biz müharibə şəraitində olmasaydıq, birinci yerdə olardı. Çünki hazırda ən böyük xərclərimiz müdafiə sahəsi ilə bağlıdır. Bu da təbiidir. Yəni, bu, özlüyündə bir göstəricidir, bizim siyasətimizin təzahürüdür, bizim niyyətimizi əks etdirir. Mən şadam ki, bu gün bizim gənclərimiz biliklərə çox meyillidirlər. Gənclərimiz bilikli, savadlı olmalıdırlar ki, gələcəkdə ölkəmizi idarə etsinlər. Bizim gələcəyimiz bu gün məktəblərdə, ali məktəblərdə oxuyan uşaqların, şagirdlərin, tələbələrin əlində olacaqdır. Onların bilikləri, savadı, əlbəttə ki, bizim ölkəmizin gələcəyini şərtləndirəcək. Eyni zamanda, onu da xüsusi qeyd etməliyəm ki, bizim gənclərimiz, uşaqlarımız vətənpərvərlik ruhunda, milli ruhda, milli dəyərlər - ənənəvi Azərbaycan dəyərləri əsasında tərbiyə almalıdırlar. Burada, əlbəttə ki, ailələrin rolu müstəsna əhəmiyyət kəsb edir. Eyni zamanda, bütün məktəblərdə müəllimlər şagirdləri milli ruhda, ənənəvi dəyərlər ruhunda tərbiyə etməlidirlər.

Bu gün biz qloballaşma adı altında böyük siyasətin təzahürlərini görürük - gənclərin beyini bəzi xarici dairələr tərəfindən zəhərlənir, gənclər yoldan çıxarılır, onlar yalan informasiyalarla, böhtan, şər, təxribat xarakterli məlumatlarla üzləşirlər. Gənclər bəzi hallarda yəqin edə bilmirlər ki, hansı informasiya yalandır, hansı informasiya doğrudur. Ona görə müəllimlərdən çox şey asılıdır. Biz uşaqlarımızı, yeniyetmələrimizi, gənclərimizi xalqımıza, milli adət-ənənələrimizə zidd olan, dırnaqarası dəyərlərdən qorumalıyıq. Bizim uşaqlarımız Vətənə bağlı olmalıdır, xalqa bağlı olmalıdır, müstəqilliyi hər şeydən üstün tutmalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır, əsrlər boyu qoruduğumuz milli adət-ənənələrimizi qorumalı və onları müdafiə etməlidirlər. Belə olan halda Azərbaycan bundan sonra da müstəqillik və inkişaf yolu ilə gedəcək.

Biz bu gün müstəqil ölkə kimi böyük uğurlara imza atmışıq. İstənilən sahədə Azərbaycan xalqı görür ki, müstəqilliyin üstünlükləri nədən ibarətdir. Bu gün Azərbaycan ləyaqətli ölkədir, özünü beynəlxalq müstəvidə ləyaqətlə aparır. Azərbaycan azad ölkədir, vətəndaşlarımız azadlıq şəraitində yaşayırlar. Azərbaycan iqtisadi sahədə inkişaf edən ölkədir, güclü orduya sahib olan ölkədir. Biz bütün bunları müstəqillik dövründə əldə etmişik. Bu gün Azərbaycan nadir ölkələrdəndir ki, tam müstəqil siyasət aparır - həm xarici, həm daxili. Bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir. Mən bu dəstəyi hər zaman, hər gün hiss edirəm. Bu dəstək mənə əlavə güc verir. Biz bu dəstəyə arxalanaraq Azərbaycanı inamla irəliyə aparırıq. Bizim uşaqlarımız, gənclərimiz gələcəkdə ölkəmizi bu yolla - müstəqillik yolu ilə aparmalıdırlar ki, Azərbaycan xalqı bundan sonra da heç vaxt heç kimdən asılı olmasın. Biz bundan sonra da heç vaxt heç kimin təsiri altına düşməyək. Dediyim kimi, burada bilik, savad, vətənpərvərlik, milli ruh, ləyaqət xüsusi rol oynayır.

Mən şadam ki, bu gün Azərbaycanda yetişən gənclər məhz bu yüksək meyarlara cavab verir. Əminəm ki, bu müsbət meyillər davam edəcək və bizim uşaqlarımız, gənclərimiz bilik, savad əldə edərək gələcəkdə Vətənə dəyərli vətəndaşlar kimi xidmət edəcəklər və ümumi inkişafımıza öz töhfələrini verəcəklər.

***Mən sizi yeni dərs ilinin başlaması münasibətilə bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram.***

# Mir Cəlal Paşayevin anım günü

***Görkəmli alim, yazıçı və pedaqoq, XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş Mir Cəlal Paşayevin anım günüdür. Mir Cəlal Paşayev 1908-ci il aprelin 26-da Ərdəbildə yoxsul kəndli ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığı burada keçib. 1918-ci ildə atasının vəfat etməsi səbəbindən böyük qardaşının himayəsində yaşayıb.***

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal Paşayev elə həmin ildə də ilk tədqiqat əsərini yazıb. "Bir gəncin manifesti" əsəri, zəmanənin güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi ədəbiyyatda şöhrət qazandırıb. Gərgin zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin önəmli nümunələrindəndir.

Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcələrini alıb. XX əsrin 20-30-cu illərində şeir, oçerk və hekayələri ilə tanınan Mir Cəlal, əlli illik yaradıcılıq fəaliyyəti dövründə görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli yerini tutub. 1928-ci ildə mətbuatda ilk şeirləri ("Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir") çap olunub. 1930-cu ildən etibarən "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərdə ədib "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət" hekayələrini çap etdirib. 1932-ci ildə "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı ilk oçerklər və novellalar kitabları çap olunub.

Yazıçının qələminə altı roman məxsusdur. Onların arasında "Bir gəncin manifesti", "Dirilən adam", "Yolumuz harayadır" keçmişdən, "Açıq kitab", "Yaşıdlarım" və "Yeni şəhər" isə müasir həyatdan bəhs edir. Yazıçının böyük tərbiyəvi-əxlaqi əhəmiyyətə malik hekayələri "İnsanlıq fəlsəfəsi" (1961) kitabında toplanmışdır. "İnsanlıq fəlsəfəsi", "Subaylıq fəlsəfəsi", "Təzə toyun nəzakət qaydaları", "Vicdan mühakiməsi", "Vicdan əzabı", "Hesab dostları", "Təsadüf, ya zərurət", "Qocaların uşaq söhbəti" kimi hekayələrində real həyat lövhələri, fəlsəfi düşüncələr əks olunub.

Bədii yaradıcılıq nümunələri dəfələrlə nəşr olunan Mir Cəlalın "Seçilmiş əsərləri" (2 cilddə, 1956-57), "Seçilmiş əsərləri" (4 cilddə, 1967-68), "Seçilmiş əsərləri" (2 cilddə, 1986-87), hekayə və povestlərdən ibarət "Şəfəqdən qalxanlar" (1972), "Dağlar dilə gəldi" (1978), "Ləyaqət", hekayələrdən ibarət "Bostan oğrusu" (1937), "Gözün aydın" (1939), "Vətən" (1944), "Həyat hekayələri" (1945), "Sadə hekayələr" (1955), "Xatirə hekayələri" (1962), "Gülbəsləyən qız"



(1965), "Silah qardaşları" (1974) bu qəbildəndir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, 2008-ci ildə yazıçı Mir Cəlal Paşayevin yubileyi təntənə ilə qeyd edilib. Parisdə, YUNESKO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilib. 2017-ci ildə Mir Cəlal Paşayevin İçərişəhərdə yaşadığı binada "Ədibin evi" açılıb.

*Ali təhsilin flaqmanı sayılan Bakı Dövlət Universitetinin sevimli müəllimi, nüfuzlu professoru olaraq millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini öyrədən şəxsiyyət kimi xatirələrdə daim yaşayacaq. "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir" kəlamı indi də dillər əzbəri olan Mir Cəlal Paşayevin əsərləri bir çox xarici dillərə tərcümə edilib, əsərləri müxtəlif ölkələrin oxucularında sonsuz maraq doğurub.*

# BDU Elmi Şurasının onlayn iclası keçirilib



***Sentyabrın 14-də Bakı Dövlət Universitetində (BDU) 2020/2021-ci tədris ilində Elmi Şuranın ilk iclası keçirilib.***

***İclası giriş sözü ilə açan rektor Elçin Babayev şura üzvlərini yeni tədris ilinin başlaması münasibətilə təbrik edərək gündəlikdə olan məsələləri iştirakçıların nəzərinə çatdırıb.*** "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 avqust tarixli 312 nömrəli Qərarının icrası haqqında" Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 2020-ci il 2 sentyabr tarixli F-391 nömrəli əmrindən irəli gələn məsələlərin icrası ilə bağlı qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib. Pandemiyanın davam etməsi ilə əlaqədar olaraq virusa qarşı təhlükəszliyin təmin edilməsi məqsədilə təlimat kitabçasının hazırlanması, universitetdə tədrisin distant formada təşkili, karantin rejiminin tələblərinə ciddi riayət olunmasının təmin edilməsi kimi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin İqtisadiyyat və idarəetmə kafedrasının yenidən formalaşdırılması, 2021-ci ildə Azərbaycan Respublikasının müstəqilliyinin 30 illiyi münasibətilə "Müstəqillik dövrü Azərbaycan tarixi" kitabının hazırlanması ilə bağlı müzakirələr aparılıb.

Əlavə təhsil üzrə tələbə qəbulunun və BDU-nun "Gənc istedadlar" liseyinə şagird qəbulunun nəticələri, yeni tədris ilində qarşıda duran vəzifələr, təhsilin keyfiyyətinin müasir çağırışlara uyğunlaşdırılması, tədrisin keyfiyyətinin artırılması məqsədilə "elektron universitet" modelinin tətbiqi, maddi-texniki bazanın təkmilləşdirilməsi, qarşıya çıxacaq problemlər, onların həlli yolları və görüləcək işlər müzakirə edilib.

Rektor distant dərslərin təşkil edilməsi və idarə olunmasında fəal iştirak edən sturktur rəhbərlərinə, fakültə dekanlıqlarına, professor-müəllim heyətinə və texniki kollektivə rəhbərlik adından təşəkkür edib, kollektivə yeni tədris ilində uğurlar arzulayıb.

# Akademik Rəfiqə xanım Əliyevanın anadan olmasının 88-ci ildönümüdür



*Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, kimya elmləri doktoru, professor, əməkdar elm xadimi Rəfiqə xanım Əliyevanın anadan olmasının 88-ci ildönümüdür.*

***Rəfiqə Əliyeva 1932-ci il sentyabrın 20-də Naxçıvan şəhərində anadan olub. Ali təhsilini 1951-1956-cı illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) kimya fakültəsində alıb.***

Əmək fəaliyyətinə 1956-cı ildə Azərbaycan Politexnik İnstitutunda başlayan Rəfiqə Əliyeva 1957-ci ildən etibarən Azərbaycan Dövlət Universitetində, 1958-1960-cı illərdə isə Azərbaycan Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda kiçik elmi işçi kimi fəaliyyət göstərmişdir. 1960-1963-cü illərdə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinin aspiranturasında təhsil alan Rəfiqə Əliyeva 1964-cü ildən ömrünün sonuna qədər Universitetin Analitik kimya kafedrasında işləmiş və burada assistent, baş müəllim, dosent, professor vəzifələrində çalışmış, 2001-ci ildən "Ekoloji kimya və ətraf mühitin mühafizəsi" elmi-tədqiqat laboratoriyasına rəhbərlik etmişdir.

Rəfiqə Əliyeva 1970-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyalarını müdafiə etmiş və həmin ildə professor adına layiq görülmüşdür. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir. O, Azərbaycanın elm tarixində analitik kimya ixtisası üzrə ilk və yeganə akademikdir.

Ömrünü kimya elminə həsr etmiş Rəfiqə Əliyeva bu sahədə yüksəkixtisaslı kadrların hazırlanmasına bütün bilik və bacarığını sərf etmişdir. Yarım əsrdən artıq pedaqoji fəaliyyətlə məşğul olan alimin araşdırmaları analitik reaksiyaları xarakterizə edən parametrlərlə kompleks birləşmələrin quruluşu arasındakı asılılığın müəyyən edilməsinə həsr olunub. Rəfiqə xanımın ətraf mühitin mühafizəsi ilə bilavasitə bağlı olan bir sıra tədqiqatları, eyni zamanda, üzvi reaktivlərin köməyi ilə metalların təyini və onların ayrılması metodikasının işlənib hazırlanmasına yönəlib. Ekologiyanın aktual problemləri ilə bağlı işləri isə ölkəmizin davamlı inkişafının təmin olunmasına öz töhfəsini verib.

450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifi olan Rəfiqə Əliyeva bir sıra elmi şuraların və cəmiyyətlərin üzvü olmuşdur. Alimin rəhbərliyi altında 20-dən çox fəlsəfə və elmlər doktoru yetişmişdir.

*Tanınmış kimyaçı alim Rəfiqə Əliyevanın məhsuldar elmi-pedaqoji fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının ali mükafatı - "Şöhrət" ordeni ilə təltif edilmişdir.*

Akademik Y.Məmmədəliyev adına mükafatın laureatı olan Rəfiqə Əliyeva Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Amerika Biblioqrafiya İnstitutu tərəfindən "2001-ci ilin adamı" və "2001-ci ilin işgüzar qadını" seçilib. 2005-ci ildə Bakı Dövlət Universitetinin təsis etdiyi "İlin alimi" fəxri adına layiq görülüb. Onun ekologiyaya və ümumi ekologiyaya aid dərs vəsaitləri isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Həsən Əliyev adına mükafatı ilə qiymətləndirilib.

2018-ci ildə "Azərbaycanım" beynəlxalq jurnalının redaksiya şurası "Akademik Rəfiqə Əliyeva adına Qızıl Orden" təsis edib.

***Görkəmli alim, akademik Rəfiqə Əlirza qızı Əliyeva onu tanıyanların yaddaşında əsl Azərbaycan qadını, elm fədaisi və səmimi, mehriban insan kimi yaşayır, işıqlı xatirəsi daim ehtiramla anılır.***



# UNİVERSİTET XƏBƏRLƏRİ

## Rektor Enactus Azərbaycan Milli Yarışının qalib komandası ilə görüşüb

***2020-ci il 17 sentyabr tarixində Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev Azərbaycan Respublikasının Gənclər Fondu və BP şirkətinin təşkilatçılığı ilə baş tutan Enactus Azərbaycan Milli Yarışının qalibi olan BDU-nun Enactus komandası ilə görüşüb.*** Rektor komanda üzvlərini təbrik edib, onlara gələcək yarışda və dərslərində uğurlar arzulayıb. Bildirib ki, Bakı Dövlət Universitetində tələbələrin həm təhsilinə, həm elmi tədqiqatla məşğul olmasına, həm də asudə vaxtlarının səmərəli keçirmələri böyük diqqət ayrılıb.



Görüşdə çıxış edən tələbələr onların bilik və bacarıqlarını nümayiş etdirmələri üçün yaradılan şəraitə görə universitet rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, BDU-nun Enactus komandası Niderlandda baş tutacaq Dünya Enactus Kuboku yarışmasında ölkəmizi təmsil edəcək. Bu yarışmada dünyanın 36 ölkəsindən 25 mindən çox universitet tələbəsini təmsil edən komandalar öz biznes, təhsil və sosial layihələrini təqdim edəcəklər.

BDU-nun Enactus komandasını bir daha təbrik edir, gələcək yarışda uğurlar diləyirik!

## Millət vəkili Hicran Hüseynova ilə onlayn görüş keçirilib

Sentyabrın 3-də Bakı Dövlət Universitetinin (BDU) Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin professor-müəllim heyəti və magistrantlarının iştirakı ilə Azərbaycan Respublikasının Milli Məclisinin Ailə, Qadın və Uşaq Məsələləri üzrə Komitəsinin sədri, millət vəkili, professor Hicran Hüseynova ilə onlayn görüş keçirilib.

Onlayn görüşdə H.Hüseynova "COVID-19" pandemiyasının beynəlxalq münasibətlərə təsiri: mövcud durum, çağırışlar, dövlətlərin və beynəlxalq təşkilatların bu istiqamətdə fəaliyyəti mövzusunda məruzə ilə çıxış edib. Məruzədə pandemiya ilə mübarizədə dövlətlərin, beynəlxalq təşkilatların və Azərbaycanın bu istiqamətdə fəaliyyəti, virusa qarşı mübarizədən daha çox güc göstərişinə üstünlük verən Ermənistanın aqressiv və işğalçı mövqeyi, beynəlxalq hüquq normalarının pozulması haqqında ətraflı məlumat verib. Beynəlxalq təşkilatların, xüsusilə, Birləşmiş Millətlər Təşkilatı (BMT) və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) qlobal problemlə mübarizə istiqamətində gördüyü işlərdən danışıb.

Millət vəkili pandemiya dövründə Azərbaycan Respublikasının regional və beynəlxalq müstəvidə atdığı addımlardan, ölkə rəhbəri cənab İlham Əliyevin qlobal həmrəylik nümunəsi kimi Azərbaycanın etdiyi çıxışlardan, 30-dan artıq ölkəyə humanitar yardım göstərilməsindən, bununla da Azərbaycanın dünyada sülh və təhlükəsizlik carçısı olması kimi məqamlardan da söz açıb.

Videobağlantıya qoşulan BDU-nun rektoru Elçin Babayev informasiya müharibəsi dövründə tələbələrin göstərdiyi xüsusi fəallığa diqqət çəkərək gənclərin bu fəaliyyətini yüksək qiymətləndirdiyini bildirib. Rektor informasiya təhlükəsizliyinin dövlətin mövcudluğunu təmin edən başlıca şərt olduğunu bildirərək bu sahənin daim cəmiyyətin diqqət mərkəzində olmasının vacibliyini onlayn tədbir iştirakçılarının diqqətinə çatdırıb.



Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı Zeynalabdin Həsənalıyevin moderatorluğu ilə keçən onlayn görüş qarşılıqlı diskussiya şəraitində davam edib.

## BDU-da Müqayisəli hüquq araşdırmaları mərkəzi yaradılacaq

***Bakı Dövlət Universitetində Müqayisəli hüquq araşdırmaları mərkəzi yaradılacaq. Mərkəzin yaradılması Bakı Dövlət Universitetinin Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universiteti ilə ikili diplom proqramları sistemində mövcud əlaqələrinin genişləndirilməsi məqsədini daşıyır.*** Birgə fəaliyyətin innovativliyini nəzərdə tutan Mərkəz, BDU ilə Almaniyanın nüfuzlu hüquq məktəbləri arasında əlaqələrinin və ikili diplom proqramlarının miqyasını genişləndirəcək, birgə doktorant, magistr hazırlığını daha da gücləndirərək, elmi mübadiləni inkişaf etdirəcək. Həmçinin Mərkəzdə magistr və doktorantların tədqiqat imkanlarının böyüdülməsi, tədqiqat fəaliyyətlərinin təkmilləşdirilməsi kimi məsələlərin reallaşdırılması da nəzərdə tutulub.

Müqayisəli hüquq araşdırmaları mərkəzinin yaradılması ilə bağlı təklifi Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universiteti verib. Mərkəzin müvafiq kitab və avadanlıqlarla təchizi və digər texniki təminatı Halle-Vittenberq Universiteti tərəfindən həyata keçiriləcək.

# BDU ölkədə təhsil islahatlarının həyata keçirilməsində önəmli rol oynayır

***Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bir çox sahələrdə olduğu kimi, ali təhsil sahəsində də köklü islahatlar aparılmış, cəmiyyətin yeni sifarişlərinin, ehtiyaclarının və tələbatlarının ödənilməsi məqsədi ilə yeni ali təhsil müəssisələri və təhsil formaları yaradılmışdır. Bu müəssisələrin bir çoxunun fəaliyyəti müasir standartlara uyğun qabiliyyətlərin formalaşdırılmasına istiqamətlənmişdir. Bu da ali təhsilin Avropa və dünya təhsil məkanına sürətli inteqrasiyası üçün əlverişli zəmin yaratmışdır. Son illər ali təhsilin Avropa və dünya təhsil məkanına inteqrasiyası məqsədi ilə bir sıra tədbirlər həyata keçirilmişdir.***

Bakı Dövlət Universiteti (BDU) ölkəmizdə təhsil islahatlarının həyata keçirilməsində çox önəmli rol oynayır. Ölkədə yaradıcı elmi təfəkkürün innovativ ideyalar əsasında formalaşdırılması, hazırlıqlı kadr potensialının davamlı təkmilləşdirilməsi və elmi-intellektual mühitin inkişaf səviyyəsinin daha da yüksəldilməsi, o cümlədən Azərbaycan xalqının tarixi-mədəni dəyərlərinin və mənəvi-əxlaqi sərvətlərinin qorunub yaşadılması, Universitetin dünya təhsil məkanına inteqrasiya yolunu seçməklə göstərdiyi bugünkü çoxşaxəli, geniş fəaliyyətin başlıca istiqamətlərini təşkil edir.

Təbiət, fundamental, humanitar və sosial elmlər sahəsi üzrə çoxprofilli ali təhsil ocağı olan BDU-nun 16 fakültəsində bakalavriat və magistratura səviyyəsində kadr hazırlığı həyata keçirilir, təhsil alan tələbələrin sayı isə 24 mindən çoxdur. Universitetdə təhsil alan tələbələrin təlim-tərbiyəsi ilə 3000-dən çox əməkdaş, o cümlədən, 1500 nəfərlik professor-müəllim heyəti məşğul olur. Onlardan 300 nəfərə yaxını elmlər doktoru, professor, 1000 nəfərə qədəri fəlsəfə doktoru, dosentdir. İldən-ilə BDU-da təhsil almaq istəyən tələbələrin sayı artır. Ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında respublika ali məktəbləri arasında ən çox tələbə qəbulu Bakı Dövlət Universitetinin payına düşür.

Bu gün təhsil islahatlarının önündə gedən Bakı Dövlət Universitetinin kollektivi Avropaya sürətlə inteqrasiya edən ölkəmizin gələcəyini təmin edəcək yüksəkixtisaslı kadrların hazırlanması üçün əlindən gələn hər şeyi edir. Universitet kollektivi Prezident İlham Əliyev tərəfindən göstərilən diqqət və qayğıya cavab olaraq, təhsildə və elmdə yüksək yaradıcılıq uğurlarını zənginləşdirmək, dünya təhsilinə və elminə inteqrasiyanı sürətləndirmək üçün gərgin səylərini davam etdirir.

Bu ilin mart ayından etibarən dünyanın əsas mövzularından biri olmaqda davam edən koronavirus (COVID-19) pandemiyası ali təhsil sistemi qarşısında bir sıra təxirəsalınmaz vəzifələr qoydu. Ənənəvi tədris prosesinin dayandırılması ilə əlaqədar universitetlər yaranmış şəraitdə məsafədən təhsilin tətbiqi yolunu seçdi, təhsilin fasiləsizliyinin təmin olunmasını özünün prioritet vəzifəsi kimi həyata keçirməyə başladı. Bu prosesə Azərbaycanın ali təhsil müəssisələri də çevik adaptasiya olundular. İnfeksiya səbəbindən ölkəmizdə təlim və tədris prosesinin dayandırılması bütün ali təhsil müəssisələri kimi BDU üçün də ənənəvi olmayan fəaliyyət mexanizminin tətbiqini zəruri etdi.

Bakı Dövlət Universiteti 2020/2021-ci tədris ilinə hazırlıq işlərini uğurla başa çatdırıb, məsafədən dərslərin artıq infrastrukturlarda həftəsinə start verilib. Pandemiya dövründə distant (məsafədən) təhsilin təşkilində qarşıya çıxacaq problemlərin qarşısını almaq məqsədilə "Microsoft Teams" platformasından istifadədə çətinlik çəkən professor-müəllim heyətinin bəzi üzvləri üçün xüsusi proqram əsasında onlayn formada təlimlər təşkil edilib. Təlimlərdə bütün müəllimlərin iştirakı təmin olunub. Təlimlər təqdimatların hazırlanması və ekran paylaşımlarının təşkili, test tapşırıqlarının hazırlanması və paylaşılması, dərsin təşkili və idarə edilməsi, elektron jurnal, tədris fayllarından sinxron və asinxron istifadə işinin təşkili kimi mövzuları əhatə edib.

Ümumiyyətlə, BDU-nun rəhbərliyi professor-müəllim heyətinin müasir informasiya-kommunikasiya texnologiyaları vasitələrindən istifadə bacarıqlarının inkişafını daima diqqət mərkəzində saxlayır və onların İKT biliklərinin təkmilləşdirməsi üçün mütəmadi tədbirlər həyata keçirir. Eyni zamanda Universitetdə onlayn təhsilin təşkilinin texniki təminatını həyata keçirən, yarana biləcək texniki problemlərin həlli ilə məşğul olan texniki heyət gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.

Dövlətimiz daima ölkənin ilk ali təhsil ocağı olan Bakı Dövlət Universitetinin inkişafına dəstək verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi "Bakı Dövlət Universiteti Azərbaycanın inkişafı, Azərbaycanda təhsilin inkişafı, elmi potensialın gücləndirilməsi üçün çox mühüm rol oynamışdır. Bu rol bu gün də davam edir. Çox sevindirici haldır ki, Bakı Dövlət Universiteti bütün bu illər ərzində Azərbaycanda təhsil sahəsində öz aparıcı rolunu qoruyub saxlaya bilmişdir və bu gün bu rol daha da güclənir".

*Əlimusa İbrahimov,*
*Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin baş müəllimi,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Maskalı "Gənc istedadlar" BDU-da

## Bakı Dövlət Universitetinin nəzdində "Gənc İstedadlar" liseyinə qəbul olunmaq istəyən şagirdlər avqustun 25-də imtahanda iştirak etdilər.

Əvvəlki illərdən fərqli olaraq bu il imtahan tamam fərqli formatda keçirildi. Universitetin binasına daxil olan əməkdaşların və şagirdlərin hərarəti ölçüldü. Pandemiya ilə əlaqədar imtahan liseydə deyil, Bakı Dövlət Universitetində təşkil edildi. Təlimata əsasən imtahanda iştirak edənlər tibbi maskadan istifadə etməli, həm də imtahan boyunca onu çıxartmamalı idilər.

İmtahan prosesinin saat 11.00-da başlayıb 13.00-da bitməsi nəzərdə tutulsa da, saat 9-dan əksər iştirakçılar imtahan yerində idilər. Universitet rəhbərliyi ilə əməkdaşların qısa müddətli maskalı-sosial məsafəli görüşündə bu il imtahanlara 550-dən artıq şagirdin qatıldığı haqda məlumat verildi. Pandemiyanın fəsadları ilə üzləşməmək üçün bəzi qaydalar - sosial məsafə, tibbi maska, spirt kimi vasitələrdən doğru istifadə xatırladıldı və hər auditoriyada 5-6 tələbəyə nəzarət üçün bir müəllim-koordinator təhkim olundu.

Şagirdlərə Universitetin könüllü tələbələri də dəstək üçün gəlmişdilər. Uşaqları auditoriyalara yola salmaq, imtahan prosesində istənilən qayğıları ilə maraqlanmaq məqsədilə dəhlizlərdə öz "postlarında" hazır dayanmışdılar.

Şagirdlərin imtahan vaxtından bir saat əvvəl gəlmələri onlarla söhbətləşməyə imkan yaratdı. Maska arxasından belə hiss olunan məsum həyəcanlarını azaltmaq üçün asudə vaxtlarını necə keçirdikləri, imtahanlara hazırlıqları, gələcəkdə sahib olmaq istədikləri peşələri barədə danışdıq. 5-6 nəfərin sosial məsafə gözləmək, spirt və maskadan istifadə etməklə əyləşdikləri Universitet auditoriyasında özlərini rahat hiss etmələri baxımından söhbətimiz çox işə yaradı.

Əvvəlcə maraq dairələrindən danışdıq. Onların maraq dairələri asudə vaxtlarını dəyərləndirmə üsulları kimi fərqlidir. Balaca Afət rəsm çəkməyə, Nəzrin muncuqlarla bəzək əşyaları düzəltməyə, Kənan internetdə təbiətlə, tarixlə bağlı maraqlı videolara baxmağa həvəs göstərir. Sevindirici haldır ki, hər biri günümüzün xəstəlikləri hesab olunan Tik-Tok, Pubg kimi oyunların zərərlərini çox gözəl dərk edirlər. Pandemiya dövründə evdə oturmaqdan sıxılanda isə günün müəyyən saatlarını açıq havada oynamaqla, velosiped sürməklə, digər idman növləri ilə məşğul olmaqla keçirdiklərini dedilər.

İmtahanlara isə səylə, bütün gücləri ilə hazırlaşmışdılar. Ülvi deyir ki, liseyin daxilində olan kurslarda iştirak edib. Ona görə də imtahanlara 60 sualı - riyaziyyat, ana dili və məntiqi əhatə etdiyini və dörd səhvin bir düz cavabı apardığından xəbərdardır.

İki saat davam edən imtahanda cavabları isə karandaşla yox, qələmlə qeyd etmek lazım imiş. Bunu da Ülvidən öyrəndik.

Beləliklə saat 11.00-da şagirdlərə imtahan vərəqlərinin istifadəsilə bağlı təlimat verildi və sual kitabçaları paylanıldı. Maskalı imtahanın ağırlığı simalarında əks olunsa da, yüksək nəticə göstərməyə iddialı olduqları hər hallarından bəlli idi.

İmtahan müddətində suallarla mübarizəyə başları qarışan iddiaçılar rektor Elçin Babayevin imtahan prosesinə birbaşa nəzarəti məqsədilə hər bir otağa nəzər salmasının fərqində belə olmadılar.

Nəhayət, həyəcanlı əllərlə qəbul edilən sual kitabçalarını imtahanın bitməsinə 10-15 dəqiqə qalmış böyük inam hissi ilə təhvil verməyə başladılar. BDU-nun binasına tərəddüdlü addımlarla daxil olan gənc istedadlar özlərinə böyük inamla Universitet binasını tərk etdiler. Və təbii ki, yenə də maskalı...

*Könül Niftəliyeva,*
*Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının dosenti*

# BDU Fransa Lyon Universiteti ilə birgə ikili diplom proqramını həyata keçirəcək

## Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zakari Qrossun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub

Görüşdə BDU-nın rektoru Elçin Babayev, Beynəlxalq əlaqələr üzrə prorektor Şahin Pənahov, rektorun strateji inkişaf və əlaqələr üzrə müşaviri Əli Nağıyev, Hüquq fakültəsinin dekanı Əmir Əliyev, Fransanın Azərbaycandakı səfiri Zakari Qross, Fransız İnstitutunun (İFA) direktoru Jerom Kel, universitetlərarası əməkdaşlıq üzrə attaşe Klemans Felipo iştirak ediblər.

***Qonaqları salamlayan BDU-nun rektoru Elçin Babayev nümayəndə heyətini Universitetdə görməkdən məmnun olduğunu bildirib.*** E.Babayev hər iki ölkə arasında əməkdaşlığın vacibliyini qeyd edərək, Universitetin tarixi, maddi-texniki bazası, professor-müəllim heyəti, tələbələr üçün yaradılan şərait barədə ətraflı məlumat verib. BDU-nun yenilənən beynəlxalq əlaqələrindən bəhs edən rektor Universitetdə fəaliyyət göstərən mərkəzlərin işinə də diqqət çəkib. Rektor BDU-nun artıq yeni inkişaf mərhələsinə qədəm qoyduğunu əlavə edərək ali məktəbin elmi-tədqiqat mərkəzinə çevrilməsi istiqamətində görülən işlərdən bəhs edib.

Tədbirdə Bakı Dövlət Universiteti və Fransız universitetləri arasında tarix, arxeologiya sahəsində əməkdaşlığın genişləndirilməsi və ikili diplom proqramının həyata keçirilməsi barədə danışıqlar aparılıb.



2020/2021-ci tədris ilində BDU ilə Fransanın Lyon 2 Universitetinin hüquq fakültələri "Əqli mülkiyyət hüququ" ixtisası üçün ikili magistr diplomu proqramı üzrə müqavilə imzalanacağı haqqında qərar qəbul edilib.

Rektorun strateji inkişaf və əlaqələr üzrə müşaviri Əli Nağıyev fransız şirkətləri ilə birgə layihələrin hazırlanması istiqamətində görülən işlərin əhəmiyyətindən söz açıb.

Fransa İnstitutunun direktoru Jerom Kel rəhbərlik etdiyi universitetlə Bakı Dövlət Universiteti arasında əlaqələrin qurulmasının vacibliyini qeyd edib, BDU-da fransız dilinin tədrisinə dəstək verəcəklərini bildirib. Bu istiqamətdə yeni tədris ilindən başlayaraq Fransız İnstitutu BDU-nun Hüquq fakültəsi ilə birlikdə ikili magistr diplomu proqramına qoşulacaq Hüquq fakültəsinin 10 nəfər tələbəsi üçün fransız dili dərslərinin təşkili planlaşdırılıb.

# Yay semestrinin onlayn dərsləri: yaxşı nədir, pis nədir?

Səkkiz ayını yola saldığımız 2020-ci il həm cəmiyyətimizin həyatına, həm də hər kəsin taleyinə çoxlu sürpriz gətirdi. Qəribədir, hələ koronavirus pandemiyası adlandırılan mərəz dünyaya meydan oxuyana qədər telefonu əllərindən düşməyən ata-analar, əmi-bibilər elə hey gileylənirdilər ki, bəs uşaqların günü telefonla keçir, vaxtlarını boş yerə sərf edirlər. Hamı çıxış yolu arayır, zəmanəni qınayır, amma özü gündən-günə texnologiyanın təsir dairəsinə daha çox düşürdü...

Amma zamanın tendensiyasını heç kəs, heç cür, heç nə ilə dəyişdirə bilməz. İndi hər kəs zamanla ayaqlaşmağa çalışır. Bu gün internet həyatımızın ayrılmaz bir hissəsinə çevrilib. Müasir təhsil sistemini də kompütersiz və internetsiz təsəvvür etmək olmur.

Əlbəttə, bu da gerçəkdir ki, internet canlı ünsiyyəti əvəz edə bilməz. Xüsusilə təhsildə. Həm orta, həm də ali məktəbdə...

Bizim çoxumuz kompüterlə təkbətək qaldıq və hər şeyin o qədər də ürəkaçan olmadığını gördük. Yox, ilk baxışdan düşündüyümüz kimi deyil: müəllim heç yerə getməyib. Axı uzaqdan, məsafədən təhsil, yəni distant təhsil zəruri materialı yalnız müstəqil öyrənmə yolu ilə mənimsəməyə deyil, həm də müəllimdən məsləhət almağa imkan yaradır.

Distant təhsil nədir? Mütəxəssislər deyir ki, distant təhsil informasiya texnologiyalarından istifadəyə əsaslanaraq tədris mühitinin köməyi ilə bilik və bacarıqların mənimsənilməsi prosesidir. Bu tərifin o biri hissəsində isə distant təhsil uzaq məsafədən tədrislə bağlı məlumat mübadiləsini təmin edən, onun idarəetmə sistemini həyata keçirən proses kimi dəyərləndirilir. Bu, müəllim və tələbə arasında birbaşa təmas olmadan məsafədən öyrənməyə imkan verən, müasir informasiya və telekommunikasiya texnologiyalarından istifadəyə əsaslanan tədris prosesini təşkil etməyin bir yoludur.

Elə biz də 2019/2020-ci tədris ilinin yaz semestrində olduğu kimi, yay semestrini də distant qaydada başa vurduq. Məlumat üçün deyim ki, Bakı Dövlət Universitetində iyulun 27-dən fəaliyyətə başlayan yay məktəbində dərslər avqustun 28-nə qədər həftə içi hər gün saat 09:00-dan 19:00 aralığında "Microsoft Teams" platforması üzərindən onlayn olaraq keçirilirdi.

Semestr boyunca Kitabxanacılıq-informasiya fakültəsində ayrı-ayrı fənlər üzrə üç müəllim dərs keçdi: Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, dosent Nadir İsmayılov "Biblioqrafiyaşünaslıq", Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrasının dosenti Zahidə Rzayeva "Kitabxana resursları" fənləri üzrə. Bir də mən "Soraq-məlumat nəşrlər sistemi" və "Nəşriyyat-poliqrafiya texnika və texnologiyası" fənlərindən mühazirə və seminar dərslərini tədris etdim. Yay semestrinə fakültənin bakalavriat səviyyəsində "Kitabxanaçılıq və informasiya", "Kitabşünaslıq" ixtisasları üzrə təhsil alan cəmi 14 tələbə qatılmışdı.



**Dünyanın görkəmli mütəxəssisləri bu qənaətdədirlər ki, müasir proqramlardan və texniki avadanlıqlardan istifadəyə əsaslanan təlim indiki elektron təhsili daha səmərəli edir. Yeni texnologiyalar vizual informasiyaların aydın və dinamik olmasına imkan verir.**

Qısaca olaraq deyim ki, bütün müəllimlər əvvəlcədən müəyyənləşdirilmiş cədvəldəki vaxta dəqiq əməl edir, dərsləri tədris proqramına uyğun keçir, eyni zamanda tələbələr də mühazirə və məşğələlərdə fəallıq göstərirdilər. Doğrudur, bəzi hallarda internet rabitəsi zəif olur və ya əlaqə qırılır, bəzən kamera görüntüsü itir və ya səs zəif gəlirdi, amma bu xırda texniki qüsurlar bütövlükdə dərslərin keyfiyyətinə mənfi təsir göstərmirdi.

Universitet rəhbərliyinin, fakültə dekanlığının, kafedranın, Tədris - Metodik Şuranın onlayn dərslərə qoşulması, müəyyən müddət ərzində dərslərdə iştirak etməsi işin xeyrinə oldu. İstər müəllimlərin, istərsə də tələbələrin məsuliyyətini artırdı. İndi qalır tələbələrin imtahan sınağı. Hər kəsin öz vəzifəsinə sadiqliyi nəticələrin uğurlu olacağına əminlik yaradır.

Elə bu məqamda bəzi məsələlərlə bağlı öz fikirlərimi bildirmək istəyirəm.

Dünyanın görkəmli mütəxəssisləri bu qənaətdədirlər ki, müasir proqramlardan və texniki avadanlıqlardan istifadəyə əsaslanan təlim indiki elektron təhsili daha səmərəli edir. Yeni texnologiyalar vizual informasiyaların aydın və dinamik olmasına imkan verir. Bu zaman təhsil prosesinin özü tələbənin təlim sistemi ilə fəal qarşılıqlı əlaqəsini nəzərə almaqla qurulur. Təlim daha da əlçatan və açıq olur, yəni evdən çıxmadan məsafədən təhsil alma imkanı yüksəkdir. Bu, müasir mütəxəssisin vaxt itirmədən əsas fəaliyyəti ilə fasiləsiz məşğul olmasına imkan yaradır. Eyni zamanda həftənin və günün istənilən vaxtlarında, kompüterin və internetin olduğu hər yerdə distant təhsil prosesini klassik təlimdən daha əlçatan edir, təşkilati cəhətdən onu xeyli sadələşdirir.

Məsələn, ABŞ-da distant təhsil və auditoriya təhsilinin səmərəliliyini müqayisəsi məqsədi ilə ali məktəb müəllimləri arasında keçirilmiş sorğunun nəticəsi maraq doğurur: müəllimlərin 57 faizinin rəyinə görə, məsafədən təhsilin nəticələri ənənəvi dərslərin nəticələrindən heç də geri qalmır, hətta bəzən onu üstələyir. Rəyi soruşulan müəllimlərin 33 faizindən çoxu isə distant təhsilin nəticələrinin yaxın illərdə auditoriya təliminin nəticələrini üstələyəcəyinə inanır.

Distant təhsilə keçid zamanı təhsil müəssisələrinin qarşılaşdığı digər vacib bir məsələ tələbələr və müəllimlər arasında qarşılıqlı əlaqə platformasının düzgün seçimidir. Bu baxımdan Təhsil Nazirliyi tərəfindən təlim-tədris prosesinin məsafədən təşkili məqsədilə ali və orta ixtisas təhsil pillələri üzrə "Microsoft Teams" platformasından ödənişsiz istifadə imkanı yaradılıb. Son ayların təcrübəsi göstərir ki, müəllimlər və tələbələr üçün əlverişli olan bu platforma maraqlı, əlçatan və anlaşılan rəqəmsal təhsil resursu kimi diqqəti cəlb edir.

Əlbəttə, distant təhsilin mürəkkəb cəhətləri də var. Ona görə də müəllim hansı çətinlik və məhdudiyyətlərlə qarşılaşacağını bilməlidir. Bütün bunları nəzərə alaraq, BDU-da "Distant təhsil üçün onlayn platformaların tədris materialları ilə iş metodikası" mövzusunda seminarın təşkili faydalı olacaqdır. Burada distant təhsil texnologiyalarından istifadə edərək tədrisin təşkili üçün tövsiyə olunan universal mənbələr haqqında hərtərəfli məlumat veriləcək. Bu seminara informasiya texnologiyaları mütəxəssisləri ilə yanaşı, səriştəli pedaqoq, sosioloq, psixoloq alim-müəllimlərin qatılması səmərəli müzakirəyə, nəticə baxımından onlayn tədris prosesinin keyfiyyətinin daha da yüksəldilməsinə gətirib çıxaracaq.

Ən əsası budur ki, pandemiya (COVİD-19) şəraitində müəllimlər ali məktəbdən kənarda distant təhsilin bütün müsbət və mənfi cəhətlərini düzgün qiymətləndirməyi bacardılar. Artıq reallıq belədir: müasir dünyada hər il daha çox tələbə onlayn təhsil almaq üçün səy göstərəcək, öyrəşdiyimiz oflayn təcrübələr isə getdikcə rəqəmsal bir formaya çevriləcəkdir. Buna görə də əyani təhsil formasının üstünlüklərini müasir texnologiyaların köməyi ilə distant təhsilə uyğunlaşdırmaq barədə daha çox düşünmək lazım gəlir.

***Knyaz Aslan,***
***Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri,***
***pedaqogika üzrə fəlsəfə doktoru, dosent***

# BDU: "Məzun-2020" telefilmi haqqında təəssüratlarım

***Dünyanı cənginə alan pandemiya təhlükəsi ilə bağlı bu il təhsil müəssisələri, o cümlədən Bakı Dövlət Universiteti öz məzunları ilə ənənəvi vida mərasimini üzbəüz görüşlə keçirə bilmədi. Bu, həm Universitet əməkdaşları, həm də məzunların təəssüfünə səbəb olsa da, çıxış yolu tapıldı. Bakı Dövlət Universiteti öz məzunları ilə onlayn formatında vida tədbiri təşkil etdi.*** Bu tədbir çox maraqlı oldu, müəllimlərin və məzunların yaddaşına orijinal bir xatirə kimi yazıldı. Universitet əməkdaşları və ictimaiyyət BDU-nun rektoru Elçin Babayevi həm də innovativ, hər şeydə yenilik axtarışında olan bir rəhbər kimi də yaxşı tanıyır. Rektorun təşəbbüsü ilə məzunlarla vida görüşü ətrafında bir telefilmin hazırlanması ideyasının gerçəkləşməsinə start verildi. BDU-nun Tədris-teleradio studiyası bu vəzifəni öhdəsinə götürdü və artıq avqustun ortasından Youtube qoyulan, Universitet miqyasında efirə çıxan "Məzun-2020" teletəqdimat çox uğurlu alındı. Doğrusu, "Məzun-2020" videotəbrikin janrını müəyyən edən sözə rast gəlmədik. Amma bir çoxumuz belə bir qənaətə gəldik ki, bu "videotəbrik" sənədli televiziya filminin bütün peşəkarlıq tələblərinə cavab verir.

Bu sənədli filmin maraqlı və yaddaqalan süjeti, dolğun işlənmiş kompozisiyası, peşəkarlığı əks etdirən rejissor işi və bir də yaxşı montaj keyfiyyəti var. Mən Jurnalistika fakültəsinin magistratura pilləsini təzəcə bitirmiş biri kimi deyə bilərəm ki, BDU TV-də hazırlanan bu filmin əsas məqsədi Universitet məzunlarının xoşbəxt taleyinə bir baxış məzmunu daşıyır.

***Məlumdur ki, Universitetimizin 100 illik fəaliyyəti dövründə dünya şöhrətli məzunları olub. Bu məzunlar içərisində ümummilli liderimiz Heydər Əliyev kimi böyük bir şəxsiyyət də var. Təsadüfi deyil ki, filmin yaradıcıları Heydər Əliyevin qürurla dediyi "Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir" sözlərini əsərin leytmotivi kimi əvvələ salmış, Prezident İlham Əliyevin Universitetin 100 illik yubileyindəki çıxışında bu təhsil ocağının tələbə və müəllimlərinə verdiyi qiyməti və məsləhətləri önə çəkmişlər.***

Filmdə Universitetimizin tarixinə qısa ekskurs, bu ilki buraxılış kurslarından bir neçə məzunun çıxışı xüsusi yer tutur.Çıxış edən hər bir məzun BDU-nun onun üçün qürur mənbəyi olduğunu böyük sevgi ilə dilə gətirdi. Universitetin sayılıb-seçilən müəllimlərinin məzunlarını təbrikində onlara həm də Vətən sevgisi, vətəndaşlıq mövqeyi aşılanır.

Filmdə ən maraqlı məqamlar planetimizin müxtəlif ölkələrində fəaliyyət göstərən Universitet rəhbərlərinin, xaricdə yaşayan məzunlarımızın ürək sözləri ifadə edən qısa, lakin çox məzmunlu sinxronlardır.

*Rektor Elçin Babayev filmin sonunda məzunlara müraciət edir və onlara uğurlar arzulayır. Bu anda mən bir tamaşaçı kimi vacib bir məqamı qeyd etməyə bilmirəm. Bu da Universitetin rektoru Elçin Babayevin çıxışının çox məzmunlu olması və həm də bu məzmunu isdedadlı bir nitq üslubunda təqdimatı oldu. Rektorun bu çıxışında məzunlara sevgi dolu ürək sözləri vardı və məzunlar hiss etdilər ki, Universitet onlardan ayrılmaz müqəddəs bir təhsil ocağıdır.*

Sonda onu da deyim ki, mətni səsləndirən Nigar Qayyumun da aktyorluq bacarığı filmin məzmununu tamaşaçıya daha dolğun çatdırılmasına xidmət edir.

Bakı Dövlət Universitetinə yeni bir sevgi faktına çevrilən "Məzun-2020" telefilminin yaradıcı heyətinə yeni uğurlar arzusu ilə

***Günel Mehdizadə,***
***BDU məzunu***

REKTORLARIMIZ...

# Müharibə illərinin ən gənc rektoru


Şamil Əliyev

Əvvəla, onu qeyd edim ki, “BDU-nun rektorları” silsilə yazımla bağlı kitabxanalara, arxivlərə baş vurmalı oldum. 1941-1944-cü illərdə BDU-ya rəhbərlik edən Şamil Rəhim oğlu Əliyev haqqında arxivlərdə, demək olar ki, heç bir sənəd tapmadım. Yalnız BDU-nun arxivində Ş.R.Əliyevin 1944-cü ilə qədər olan fəaliyyəti haqqında qısa informasiya əldə edə bilsəm də, 1944-cü ildən 1969-cu ilə qədər (1969-cu ildə vəfat edib) onun həyatını və iş fəaliyyətini əks etdirən bir sənəd belə əldə edə bilmədim. Sanki Şamil Əliyev BDU-dan rektor vəzifəsindən çıxandan sonra “qeyb” olub

Sənədlərdən, elmi mənbələrdən və xatirələrdən belə aydın olur ki, Universitetin fəaliyyəti dövründə ən gərgin, ağır, çətin illər repressiya dövrü və Böyük Vətən müharibəsi illəri olub. Çünki bu illərdə Universitetdə təhsil tamamilə “siyasi”ləşdirilib. Stalin “hökumət”i tərəfindən gecə-gündüz təriflənib göylərə qaldırılan güclü Sovet dövlətinin əzəmətliyi ideyası azad milli inkişaf ideyasını uzun müddət tapdaladı. Buna qarşı çıxan millətsevər oğullarımız “simasızlaşmış məmurlarımız tərəfindən milli təmayülçülər kimi müntəzəm olaraq sıxışdırılaraq “xalq düşməni”, “vətən xaini” kimi məhv edildi...

Belə çətin illərdə BDU-ya rəhbərlik edən ziyalılarımızdan biri də Şamil Rəhim oğlu Əliyev olub. Ş.Əliyev 1912-ci ildə Ağdam rayonunda sadə bir ailədə dünyaya gəlib. Gəlişindən iki il sonra atasını itirən Şamil bir neçə il böyük qardaşının himayəsində böyüyüb. İllər sonra isə tərcümeyi-halında qeyd etdiyi kimi, 1920-1924-cü illərdə Şuşada uşaq evində qalıb və ilk təhsilini də orada alıb. 1924-cü ildə Şuşa Pedaqoji Texnikumuna daxil olan Şamil 1928-ci ildə buranı yaxşı qiymətlərlə başa vuraraq daha mükəmməl təhsil almaq üçün üz tutur Bakıya. Elə həmin il BDU-nun tarix fakültəsinə qəbul olunur. 1931-ci ildə təhsilini başa vuraraq yenidən Ağdama qayıdır. 1933-cü ilin sonlarına kimi həm Ağdamda, həm də Şuşada pedaqoji fəaliyyətlə məşğul olur. Həmin illərdə bölgələrdə ali təhsilli kadrlar az olduğu üçün gənc müəllim bir müddət Şuşa Pedaqoji Məktəbində direktor və Şuşa Rayon Təhsil Şöbəsində müdir əvəzi işləyir. 1929-cu ildə Azərbaycan Kommunist (b) Partiyası sıralarına daxil olan Şamil müəllim artıq mərkəzin diqqətində idi.

Vəziyyəti ağır olsa da, Şamil müəllim təhsilini davam etdirmək, elmi axtarışlar aparmaq istəyindən dönmür. 1933-cü ilin sonlarında yenidən Bakıya gəlir və V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (indiki N.Tusi adına ADPU) aspiranturasına daxil olur. 1938-ci ildə onu ADPİ-yə direktor müavini təyin edirlər. 1939-cu ilin sentyabrına kimi bu vəzifədə işləyən Şamil müəllim həmin il Azərbaycan Kommunist (b) Partiyası Mərkəzi Komitəsinin təşəbbüsü ilə Moskvaya Ali Partiya Məktəbinə oxumağa göndərilir. 1941-ci ildə təhsilini başa vuran Şamil müəllim Vətənə qayıdır və bir neçə ay Mərkəzi Komitədə işləyir.

1941-ci il iyunun sonlarında Şamil Rəhim oğlu Əliyev BDU-ya rektor təyin edilir və 1944-cü il aprel ayının sonlarına kimi bu vəzifəni yerinə yetirir. Xatirələrə və deyilənlərə görə, Şamil müəllim çox gənc olmasına baxmayaraq, vəzifəsinin öhdəsindən layiqincə gəlib. Qalmaqallardan, intriqalardan çox uzaq olan, təbiətən mülayim, xoşrəftar, hər işi səbrlə, təmkinlə yoluna qoymağı bacaran Şamil müəllim BDU-ya ölkənin ağır və çətin illərində rəhbərlik edib. Dünyanı lərzəyə salan, milyonlarla insanın ölümünə səbəb olan, böyük şəhərləri xarabaya çevirən müharibə Universitet həyatına da sağalmaz yaralar vurdu. Bu özünü tədris prosesində daha tez büruzə verdi.

Dünyanı lərzəyə salan, milyonlarla insanın ölümünə səbəb olan, böyük şəhərləri xarabaya çevirən müharibə Universitet həyatına da sağalmaz yaralar vurdu. Bu özünü tədris prosesində daha tez büruzə verdi. Müəllim çatışmazlığı ilə üzləşən elm məbədində 1942-1943-cü tədris ilində universitetin akademik heyətindən 16 nəfər işdən çıxmış, yalnız 7 nəfər mütəxəssisi Universitetə dəvət etmək mümkün olmuşdur. Müharibənin birinci günü Universitetin rektoru Cəbrayıl Ələsgərovun könüllü olaraq vəzifəsindən imtina edib cəbhəyə getməsi “BDU kollektivinin bir növ könüllü səfərbərliyinə “siyasi zəmanət” oldu”. Cəbhəyə ilk yola düşən tərkibdə BDU-dan “159 nəfər müəllim, 23 nəfər aspirant, 1141 nəfər tələbə müharibəyə səfərbər edildi”.

Müəllim çatışmazlığı ilə üzləşən elm məbədində 1942-1943-cü tədris ilində universitetin akademik heyətindən 16 nəfər işdən çıxmış, yalnız 7 nəfər mütəxəssisi universitetə dəvət etmək mümkün olmuşdur. Müharibənin birinci günü Universitetin rektoru Cəbrayıl Ələsgərovun könüllü olaraq vəzifəsindən imtina edib cəbhəyə getməsi BDU kollektivinin bir növ könüllü səfərbərliyinə “siyasi zəmanət” oldu. Cəbhəyə ilk yola düşən tərkibdə BDU-dan 159 nəfər müəllim, 23 nəfər aspirant, 1141 nəfər tələbə müharibəyə səfərbər edildi.

BDU müharibə qayda-qanunlarına əsasən hökumət tərəfindən hərbiləşdirildi. Rektor Ş.Əliyevin 1941-ci il 15 iyul tarixli əmrinə əsasən “əvvəl universitetin əsas binasının, sonra isə bütün fakültələrin özünümüdafiəsi təşkil edildi. Elə həmin ilin avqustunda rektor daha bir əmr imzaladı. Bu əmrə əsasən bütün fakültələrdə tibb bacıları hazırlanması üçün 4 aylıq kurslar təşkil olundu. Bütün bu tədbirlər Universitetdə hərbi işlərin mükəmməl görülməsinə istiqamətləndirildi. Rektor Ş.Əliyev “hərbi-bədən tərbiyəsi fənlərinin tədrisinə xüsusi fikir verirdi. O, 1942-ci il 27 noyabr tarixli əmrində bu sahədə tədrisin səviyyəsinin daha da yüksəldilməsini bir daha tələb edirdi

1930-cu illərdə hökumət tərəfindən parçalanan BDU 1941-ci ilin sonlarında yenidən hökumət tərəfindən birləşdirildi. 1941-ci ilin oktyabrında AK (b) P MK və Respublika Xalq Komissarları Sovetinin qərarına əsasən 1941-1942-ci tədris ilində V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutu, K.Marks adına Xalq Təsərrüfatı İnstitutu, Azərbaycan Bədən Tərbiyəsi İnstitutu və Xarici Dil Müəllimləri İnstitutu BDU-ya birləşdirildi. Nəticədə universitet yenidən xeyli genişlənsə də, bu proses çox az çəkdi. 1943-cü ilin iyununda Bədən Tərbiyəsi İnstitutu yenidən bərpa olundu. 1944-cü ilin yanvarında Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutu, həmin ilin sentyabrında isə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu ayrılıb müstəqil instituta çevrildi.

Müharibə illərində çətinliklər olmasına baxmayaraq, BDU-da yeni fakültələr: kafedralar, şöbələr də yaradıldı. 1944-cü ilin əvvəllərində Azərbaycan Xalq Komissarları Şurası və Kommunist Partiyası Mərkəzi Komitəsi şərq xalqlarının tarixinin və dillərinin öyrənilməsini gücləndirmək barədə qərar qəbul etdi və 1943-1944-cü tədris ilində BDU-da 10 fakültə, 49 kafedra fəaliyyət göstərirdi. 1944-cü ilin yanvarında Universitetin nəzdində Fizika-Riyaziyyat Elmi-Tədqiqat İnstitutu yaradıldı. Bütün bu çətinliklərə baxmayaraq, BDU həmin illərdən ölkədə ən güclü elmi mərkəzə çevrildi və bu naliyyətlərin əldə edilməsində işgüzar, bacarıqlı bir rəhbər kimi Şamil müəllimin də əməyi vardı.

*Qərənfil Dünyaminqızı,*
*Milli mətbuat tarixi kafedrasının dosenti*

# DÖNÜŞ YENİ VƏHDƏT YARATDI...



Məlum virusun ölkəmizə dəvətsiz ayaq açması nəticəsində müxtəlif sahələrdə durğunluq, çətinlik qaçılmaz oldu. Dünyada baş verənlərin fonunda zaman və məkan baxımından sığortalanmasaq da, ancaq dövlət və xalqın birliyi nəticəsində indi olduğu kimi çox çətinliklərdən alnıaçıq, üzüağ çıxmağı bacarmışıq. Çünki tarix həmişə bizlərin döyüşdən güclü çıxan mərd, məğlubedilməz, iradəsi əyilməz fatehlər olduğumuzun şahidi olub.

Virusun Azərbaycanda geniş yayılmasının qarşısı təxirəsalınmaz tədbirlər nəticəsində alındı. Bu səbəbdən bütün ictimai tədbirlər təxirə salındı, təlim-tədris prosesində fasilə yarandı. Bu çətin dönəmdə, sınaqda Bakı Dövlət Universiteti (BDU) də gördüyü işlərlə "sağlamlıq mayakı" olmağı bacardı.

Bakı Dövlət Universitetinin rektoru, professor-müəllim heyəti, kafedralar, tələbələr hamı bir olub, bu işdə fəallıq göstərərək baş verən pandemiya ilə əlaqədar günün tələbləri səviyyəsində fəaliyyət strategiyası qurmağa nail ola bildi. Dünyanı təəccübləndirməkdə hələ də davam edən infeksiyanın psixoloji təsirindən xilas olmaq üçün Universitetimizdə fəaliyyət göstərən Psixoloji Yardım Sektorunun zəhməti isə xüsusi qeyd olunmalıdır. Müəllimlərin dərs öncəsi verdiyi tövsiyə, nəsihət isə tələbələrin gözəgörünməz düşmənlə ehtiyatlı olmasına hesablanmışdı.

Tezliklə bu virusun çəkiləcəyini düşünsək də, arzulasaq da, ancaq gedişat biz istədiyimiz kimi olmadı. Atalar demişkən: "Sən saydığını say, gör fələk nə sayır". Dərslərin istənilmədən vaxtından əvvəl yekunlaşması isə müəllim-tələbə-tədris birliyini poza bilmədi. Zamanın texnoloji imkanlarından sərfəli yararlanaraq bu boşluğu doldura bildik. Qürurverici məqam da ondan ibarətdir ki, bu pandemiya zamanı Universitet rəhbərliyi başda olmaqla, müəllimlər tələbələrə qarşı çox olduqca səmimi və həssas münasibət sərgilədilər, vəziyyəti çox düzgün qiymətləndirdilər. Aprel-may aylarında karantin rejiminin sərtləşməsinə baxmayaraq müəllim-tələbə münasibətindəki bağlılığı, ünsiyyəti sosial şəbəkə, telefon və texnologiyanın verdiyi imkanlar vasitəsilə həyata keçirdik. Ulu öndərimiz Heydər Əliyevin 97-ci ildönümü münasibətilə Universitetimiz tərəfindən təşkil olunan "Heydər Əliyev: Dahi şəxsiyyət, əbədiyaşar lider" adlı onlayn esse yazı müsabiqəsinə də fakültəmizin dəyərli müəllimlərinin xüsusi nəzarəti, tövsiyələri altında hazırlaşırdıq. Bunun nəticəsi olaraq müsabiqədə Jurnalistika fakültəsinin üç tələbəsi fərqləndi.

Mövcud vəziyyətlə əlaqədar dərslər onlayn formada, həmçinin uğurla keçirildi. Göründü ki, heç bir məsafə müəllim-tələbə birliyinə, dərs prosesinə əngəl ola bilməz, əksinə çətinliklər bizi daha da yaxınlaşdırır. Universitetin rəhbərliyi imtahan sessiyasında tələbəyönümlü qərarlar qəbul etməklə bir daha tələbələrin yanında olduğunu sübut etdi. Bu qayğını tələbələr onlayn imtahan verərək topladıqları yüksək nəticə sayəsində doğrultmağı bacardılar.

Sonda bir daha qeyd edim ki, mövcud şəraitlə əlaqədər yeni texnologiyadan istifadə tələbələrdəki elm və öyrənmək sevgisinə mane ola bilmədi. Aparılan operativ işlər sayəsində tələbələr və müəllimlər arasında mühazirələr, seminarlar, imtahan sessiyası yeni üsullarla həyata keçirildi. Qocaman təhsil müəssisəmiz və bu ocağın hər bir üzvünün proqressiv düşüncəsi sayəsində yaranmış vəziyyətin öhdəsindən layiqincə gələ bildik.

***Əsgər İsmayılov,***
***Jurnalistika fakültəsinin tələbəsi***



# Hardan başlanır Vətən-ordumuzun uğurları

***“Hardan başlanır Vətən?” - Bu sual zaman-zaman məni çox düşündürüb. Amma xüsusilə son vaxtlar baş verən hadisələrdən sonra, deyəsən, cavabı tapmışam. Vətən cəbhə xəttindən başlayır... O cəbhə xəttindən ki, düşmən uzun illərdir, demək olar, hər gün atəşkəsi pozur, təxribatlar törədir. Özlərinə yaraşan kimi - hiyləgər və uğursuz...***

Biz müharibə şəraitində yaşayan bir ölkə üçün hərbi - vətənpərvərlik ruhunun nə qədər vacib olduğunu zaman-zaman daha yaxşı başa düşür və həm də sevinir, hərbçilərimizlə fəxr edirik. 2016-cı ildə baş verən dörd günlük müharibəni- aprel döyüşlərini xatırlayın. Düşmən layiqli cavabı almadımı? Aldı. Biz mövqelərimizi irəli çəkmədikmi? Çəkdik. Lələtəpəni də azad etdik. İndi həmin yer Azərbaycan əsgərlərinin nəzarəti altındadır.

Mən başqa bir məqama diqqət çəkmək istəyirəm. Bu, xalqımızın birliyi, həmrəyliyi, millətlə dövlət tandemidir. Hətta koronavirus pandemiyası kimi bəşəriyyət üçün ciddi təhlükənin olduğu bir vaxtda da insanlarımız onlara görə ən prioritet məsələnin Dağlıq Qarabağın azadlığı olduğunu isbatladılar. Keçirilən aksiya, çağırış məntəqələrinə könüllü müraciətlər bir yana, eyni zamanda, informasiya müharibəsində fəallığımızı göstərdik. Müxtəlif sosial şəbəkə platformalarında yazılar yazıldı, şəhidlərimizin fotoları, onlarla bağlı xatirələr paylaşıldı. Beləliklə, aparılan təbliğat sayəsində ayrı-ayrı fərdlərin yox, yaşından, cinsindən asılı olmayaraq hər kəsin-bütöv cəmiyyətimizin ürəyi cəbhədəki əsgərlərimizlə birlikdə döyündü.

Bəri başdan deyim ki, indi deyəcəklərim subyektivizm, tərəfkeşlik kimi başa düşülməməlidir. Amma hələ də davam etməkdə olan informasiya müharibəsində BDU-nun müəllim-tələbə kollektivinin fəal çalışdığı hiss edilirdi. Bu, bəlkə də, həmin ali məktəbin tarixi ənənələri ilə əlaqəlidir. Axı indiyədək istər Qarabağ müharibəsində, istərsə də ondan sonrakı dövrdə şəhid olanlar, veteranlar arasında xeyli sayda BDU məzunu var. Universitetin həyatında 20 Yanvar şəhidlərinin xatirəsinə ucaldılan abidə də dediyimiz fikrin bariz nümunəsidir.

Haqqında danışdığımız hadisələrlə əlaqədar BDU-nun müəllim-tələbə kollektivi arasında Jurnalistika fakültəsi heyətinin daha fəal olması isə, yəqin ki, təəccüblü deyil. Axı informasiya ilə işləməyi, dezinformasiyalara qarşı mübarizə metodlarını ən yaxşı onlar bilirlər. Fakültənin dekanı, Əməkdar jurnalist Vüqar Ziferoğlu, Yeni media və elektron kommunikasiya kafedrasının müdiri, professor Cahangir Məmmədli və başqaları, demək olar, hər gün sosial şəbəkələrdə, mediada çıxış edirlər. Onlar informasiya müharibəsində Azərbaycan tərəfinin imkanları, gördüyü işlərə dair fikirlərini bildirməklə yanaşı, həm də ordumuza dəstək məqsədli yazılar yazır, öz qələmləri ilə savaşırlar.

Əlbəttə, tələbələr də bu tendensiyadan, hərbçilərimizə dəstək kampaniyasından geri qalmadılar. Necə deyərlər, qələmlərini süngüyə çevirdilər. Fakültə yoldaşlarımız Günel Abbas, Qasım Xuluflu, Aləmdə Nəsib, Gülayə Məcid və onlarca başqaları şəhidlərimizin ruhlarının şad olmasından ötrü əllərindən gələni etdilər.

Bu günlərdə ehtiyatda olan polkovnik, müasir Azərbaycan hərb tarixinin ən şanlı səhifələrindən biri-Horadiz əməliyyatlarına rəhbərlik etmiş şəxs Şair Ramaldanovla danışırdım. Səsi həmişəki-tək gümrah idi. Baş verən son hadisələrlə bağlı suallarıma ətraflı cavab verdi. Lap axırda özünəxas şəkildə əlavə etdi: “...Nə təhər deyərlər, mən bu gün də, bu yaşımda da döyüşə getməyə hazıram. Hər günümü sabah cəbhə xəttinə gedəcəkmişəm kimi yaşayıram. Lakin bilirəm ki, Azərbaycan ordusu itirilmiş torpaqlarımızı mənsiz də ala bilər və alacaq...”. Həmin sözləri çox qəribə intonasiya ilə dedi. Tarixi qələbəyə əminliyim birə beş artdı. İnanıram, o gün uzaqda deyil... Biz Dağlıq Qarabağa, Şuşaya, Laçına, Xocalıya və digər şəhər və rayonlarımıza qayıdacağıq. Lap deputat, “Ədalət” qəzetinin təsisçisi Aqil Abbasın ssenari müəllifi olduğu “Dolu” filminin son səhnəsindəki kimi. Həmin vaxt şəhidlərimizin ruhu da bizimlə birlikdə olacaq...

*Mən BDU-nun Jurnalistika fakültəsinin magistrantıyam. Ötən dörd ili də burada oxumuşam. Dəfələrlə ən müxtəlif rayonlara səfərimiz olub. Hətta bir dəfə yuxarıda adını çəkdiyim hörmətli millət vəkilimiz Aqil müəllimin təşəbbüsü və rəhbərliyi ilə Qarabağa-Ağdam və Ağcabədiyə də getmişik. Fikrimcə, qarşıdakı iki il ərzində (magistratura pilləsinin təhsil müddəti) heç olmasa bir dəfə Dağlıq Qarabağa da gedə biləcəyik. Səfərə də Cahangir Məmmədli ilə Aqil müəllim rəhbərlik edəcəklər. Elə bil, hər gün burada gəzirmişlər kimi, bizi ən görməli yerlərə aparacaq, əzbər bilirmişlər kimi, yolları göstərəcəklər... Ola bilsin, ekskursiya iştirakçılarından çoxu buna təəccüblənəcək. Halbuki onlardan hər ikisi 30 il əvvələdək boya-başa çatdığı həmin yerlərə tez-tez gedirdilər...*

Bəlkə də, nə vaxtsa Dağlıq Qarabağda, deyək ki, elə Şuşada Bakı Dövlət Universitetinin əzəmətli bir filialını da tikmək olar. Təəccüblü gəlməsin. Bu inamı məndə Azərbaycan dövlətinin uğurlu siyasəti, ordumuzun qüdrəti və insanlarımızın milli-vətənpərvərlik ruhu yaradıb...

***Kənan Novruzov,***
***Jurnalistika fakültəsinin magistrantı***

# General Polad Həşimov xatirələrdə

***Universitetimiz bizə elm, təhsil verməklə yanaşı, vətənə sevgi, torpağa bağlılıq hissini daha da gücləndirdi. Müəllimlərimiz qəhrəmanlarımızdan ehtiramla danışır, “ilk növbədə, vətənpərvər olun, vətənini sevməyəndən qəhrəman olmaz, xalqımızın, o cümlədən, BDU-nun vətəni sevən, qoruyan, bu yolda şəhid olan qəhrəman gəncləri fəxrimizdir, siz də onlar kimi olun, igidlərimizdən yazın, gələcəkdə tədris zamanı haqlarında bəhs edib onları tanıdıb sevdirin”, - deyirdilər.***




Bizlər də həyatda bunu əsas götürdük. Haqqında bəhs etdiyim qəhrəmanın adı yalnız bu günümüzün tarixinə deyil, həm də qəlblərimizə yazılan, gənclərimizə, o cümlədən, tələbələrimizə nümunə olan, gələcəkdə də sevgi və ehtiramla xatırlanacaq bir addır: General-mayor Polad Həşimov!

1975-ci ildə Qəbələnin Vəndam kəndində dünyaya göz açan, Sumqayıtda orta məktəbi, Bakıda Ali Hərbi Məktəbi, Türkiyədə Akademiyanı bitirən, 2003-cü ildə mayor, 2009-cu ildə polkovnik-leytenant, 2019-cu ildə general-mayor hərbi rütbəsi alan, çoxsaylı medal və ordenlərlə təltif edilən, əsgərləri ilə çiyin-çiyinə döyüşən, bərabər çalışaraq onlara stimul verən, mübarizə meydanının önündə duran, iyulun 13-dən 14-nə keçən gecə Tovuz istiqamətində gedən döyüşlərdə qəhrəmancasına həlak olan Polad Həşimov Müstəqillik dövründə İsmət Qayıbov və Məhəmməd Əsədovdan sonra şəhid olan 3-cü generalımızdır.

“Hədəf Nəşrləri” və “Xan” nəşriyyatı tərəfindən oxuculara hədiyyə kimi çap edilən, 2000 nüsxə ilə buraxılan 268 səhifəlik “Polad Həşimov xatirələrdə” adlı kitab generalın həyat və mübarizə yolunu müsahibə, xatirə və fotolardan boylanaraq müfəssəl şəkildə əks etdirən ilk kitabdır. “Xatirə ədəbiyyatı” silsiləsindən 52-ci kitabın “Həyat qədər dəyərli ölüm” adlı ön söz əvəzində layihə rəhbəri, f.ü.f.d., dosent Şəmil Sadıq əfsanəyə, adı dillər əzbərinə çevrilən Polad Həşimovu son 30 ildə Azərbaycan milli ruhunu özünə qaytaran zirvə kimi dəyərləndirir.

Generalın tərcümeyi-halı, xidməti xasiyyətnamə, ailəsinin, dostlarının, silahdaşlarının, əsgərlərinin, müxtəlif peşə sahiblərinin xatirələri və düşüncələri onun portretini sözlə yaradır, daxili aləmini, ideallarını təqdim edir. Xatirələri oxuduqca “ÖNCƏ VƏTƏN” amalı ilə yaşayan, düşmənə qarşı polad iradə nümayiş etdirən qəhrəmanın torpağına, xalqına bağlılığını duyur, əsgərlərinə, dostlarına, doğmalarına olan münasibətindən necə həssas qəlbə sahib olduğunu hiss edirik.

Anası Səmayə xanım Poladın uşaqlıqdan silaha həvəs göstərib onunla şəkil çəkdirdiyi, şirin dəcəllikləri, yaxşı oxuduğu, müəllimlərinin onu çox sevdiyi, hüquqşünas olmaq istəsə də, 1992-ci il müharibənin çətin vaxtlarında Tarix müəllimi Habil müəllimin təsiri ilə fikrini dəyişib hərb sahəsini seçdiyindən danışır, əsgərlərinə qayğı ilə yanaşdığı günlərə qayıdır: “Deyirdi, ana, sən məni istəyirsən? Deyirdim, hə, dünyalar qədər. O da deyirdi ki, ora gələn əsgərlərin valideynləri də onları o qədər istəyir, bizə arxayın olub göndərirlər. Əsgərlərinə bir şey olanda, hansısa xəstələnəndə Polad özünü pis hiss edirdi”.

Polad Həşimov kimi insanlar haqda həmişə əsərlərdə oxuduğunu və ona çox şablon gəldiyini, onların olmadığını, şişirdildiyini düşündüyünü bildirən xanımı Ofelya Salmanova Poladla 17 illik ailə həyatlarında onun canı, qanı ilə torpağa bağlı olduğunu, vətənə sevgini pafoslu ifadələrdə deyil, əməldə göstərdiyini, övladlarını da bu ruhda tərbiyə etdyini, həmişə əsgərlərinin yanında olduğunu, cəbhədəki problemi evə gətirmədiyini, Aprel döyüşlərində ayağından yaralandığını belə bildirmədiyini söyləyir. Bacısı Kəmalə xanım ona “Ehtiyatlı ol” deyəndə, “Vətən uğrunda o ölməsin, bu ölməsin, bəs kim ölsün”, ehtiyatda olan mayor İlkin Möhsümlü onu səngərdə görüb general olduğunu xatırladanda: “Mən kabinet generalı deyiləm, səngər generalıyam” - cavabını aldığını bildirir ki, bunlar da `onun mövqeyini şərh edir.

Kitabda generalımızın uşaqlıq, məktəb və tələbəlik illərində, həyatının digər məqamlarında çəkilmiş çoxsaylı fotoların verildiyi “Polad Həşimov fotolarda” adlı bölmə də var. 2020-ci il iyul şəhidlərimizin şəkillərinin, Qanun Ümman Qahablının bu igidlərə həsr etdiyi “Vətən oğlu!” şeirinin də verildiyi kitab “Hədəf Nəşrləri”nin direktoru Səbuhi Şahmursoy, baş redaktoru Nizami Hüseynov, qrafik dizayneri Tamerlan İsmayılzadənin qəhrəmanımız və kitab haqqında fikirləri ilə tamamlanır. S.Şahmursoy kitab üzərində çalışan böyük komandanın həvəs və məsuliyyətindən bəhs edib generalın ölməzliyini vurğulayır, N.Hüseynov onun haqqında minlərlə fərqli insanın fikirləri ilə qarşılaşdığı zaman heç bir mənfi fikir bildirilmədiyinə diqqət yönəldir: “Heç kim, bəli, heç kim Polad Həşimovla bağlı mənfi fikir dilə gətirmədi”.

Sentyabr döyüşlərindəki uğurlarımız - bir neçə kənd və yüksəkliyin azad olunması generalımızın, bütün şəhidlərimizin qanının yerdə qalmayacağının təsdiqidir. Arzu edirik ki, Qarabağımız tezliklə tam şəkildə işğaldan azad edilsin, qələbə xəbərini paylaşaq.

***İlahə Dadaşova,***
***Filologiya üzrə fəlsəfə doktoru***

# Tələbə Nəzarət Qrupu yeni tədris ilindən danışdı

***Artıq iki həftədir ki, 2020/2021-ci tədris ili başlayıb. Bakı Dövlət Universiteti (BDU) yeni tədris ilində həm təhsilalanların, həm də təhsilverənlərin onlayn dərslərdə iştirakının uğurlu təmini istiqamətində bütün zəruri tədbirləri həyata keçirib. Universitetdə tələbələri onlayn təhsil prosesində fəal iştiraka təşviq etmək, həmçinin tələbə təkliflərinin müzakirəsi məqsədilə yaradılan Tələbə Nəzarət Qrupu (TNQ) cari tədris ilində də fəaliyyətini uğurla davam etdirir. Görülən bütün işlərdə tələbələrin də fikirlərinin diqqətə alınması, təkliflərinin dinlənilməsi üçün Tələbə Nəzarət Qrupu onlayn dərslərə qoşulur, öz dərsləri ilə bərabər digər tələbə yoldaşlarının dərslərinin gedişini də izləyirlər.***

*BDU-nun İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi yeni tədris ilindəki yeniliklər və qrupun üzvlərinin nəzarət prosesi ilə bağlı fikirləri ilə tanış olub.*



***Sosial Elmlər və Psixologiya fakültəsinin III kurs tələbəsi Cəfər Gözəlov:*** "Universitetimiz distant şəkildə təhsilin təşkilini başa çatdırdıqdan sonra 2020/2021-ci yeni tədris ilinə başladı. Nəzarət qrupu olaraq biz də artıq fəaliyyətimizə start vermişik. Qoşulduğum dərslərdə tələbələrin təəssüratları müsbətdir. Dərslərə qoşulmaq problemi olduğu halda müvafiq fakültənin dekanlığı dərhal problemin həlli ilə məşğul olaraq dərslərin rahat və aydın keçirilməsini təmin edir. Tələbələrin əhval-ruhiyyəsi isə çox yüksəkdir. Ötən semestrdəki tələbələrdə olan narahatlıq hissi artıq rahatlıqla əvəz olunmuşdur.Yeni dərs ilində hamıya uğurlar arzulayıram."

**Kimya fakültəsinin IV kurs tələbəsi Emin Qulusoy:** "Artıq 2020/2021-ci tədris ilinə uğurla başlamışıq. Son kurs olaraq çox təəssüflənirəm ki, bu son ilimi hələ ki Universitetdə canlı auditoriyalarında keçirə bilmirəm.



Əvəzində məsafədən dərslərə mütamadi qoşulur, tələbə və müəllimlərlə ünsiyyətdə olaraq onlayn tədris mühitində bilik və bacarıqlarımızı artırırıq. Buna görə təhsilin davam etməsi önəmli və mühüm şərtlərdən biridir. Həm tələbə, həm də Tələbə Nəzarət Qrupu nümayəndəsi olaraq dərslərdə iştirak edirəm. Müşahidələrim bunu göstərir ki, tələbələrimiz keçən semestr əldə etdikləri bacarıq və vərdişlərlə yeni tədris ilinə tam hazırlıqlıdırlar. Bütün fənn müəllimlərimizlə ilk olaraq qurulan xoş dialoqlar bizi təhsilə daha da həvəsləndirir. Hər bir müəllim, onlayn belə olsa, öz dərsini sevərək tədris edir, hər bir tələbəmiz də bunları diqqətlə dinləyir və mənimsəyir. Bəzi tələbələrimizin dərslərə qoşulma problemləri yarandığı halda fakültə dekanlığımız operativ şəkildə həmin tələbələrə qoşulma imkanları yaradır. Bir TNQ-nun nümayəndəsi olaraq yeni tədris ilinin müsbət başladığını düşünürəm. Bütün tələbələrimizi və müəllimlərimizi yeni tədris ili münasibəti ilə təbrik edir, onlara dərslərində və fəaliyyətlərində uğurlar arzulayıram."



***Sosial elmlər və psixologiya fakültəsinin III kurs tələbəsi Nərmin Heydərova:*** "Öncəliklə hər bir tələbənin yeni tədris ilini təbrik edir və uğurlar arzulayıram. COVİD-19 pandemiyası bütün sahələr kimi təhsilə də təsirsiz keçmədi. Tələbə Nəzarət Qrupunun nümayəndəsi olaraq onlayn dərslərdə iştirak edir və dərslərin gedişini müşahidə edirəm. Müşahidələrimə əsasən, dərslər maraqlı və aktiv keçir, tələbələr müəllimləri tərəfindən yüksək motivasiya edilir, istər davamiyyət, istərsə də dərslərin onlayn təşkilində dinamika təmin edilir. Tələbərin dərslərə davamiyyəti yüksək səviyyədədir. Onlayn dərslərdə mövzuya uyğun olaraq tələbələr və müəllimlər arasında müzakirələr aparılır, diskussiyalar keçirilir. Məqsədimiz dərslərin şəffaf və düzgün keçirilməsi, onlayn dərs zamanı arzuolunmaz hal baş verərsə, bunun aradan qaldırılması və tələbələrə kömək etməkdir."



***Tarix fakültəsinin IV kurs tələbəsi Babazadə Əli:*** "Bütün dünyada olduğu kimi, ölkəmizdə də hazırkı şərait distant təhsili labüd edir. Bu səbəbdən ölkədə ən böyük tələbə kontingentinin olduğu Bakı Dövlət Universitetində də yeni tədris ilində dərslər onlayn formatda keçirilir. BDU tələbəsi kimi deyə bilərəm ki, hələ ötən tədris ilininin sonundan universitet rəhbərliyinin təşəbbüsü ilə dərslərə və imtahan prossesində şəffaflığa nəzarət üçün universitetimizdə Tələbə Nəzarət Qrupu fəaliyyətə başladı. Bu qrupun üzvü kimi deyə bilərəm ki, yeni tədris ilində də eyni mexanizmlə və daha mütəşəkkil formada onlayn dərslərdə iştirak edirik. Universitetimizdə onlayn dərslərin təşkilini və sistemli formada olmasını yüksək qiymətləndirmək olar. Müəllimlərin yeni dərs ilində daha yüksək səviyyədə təlimatlandırılması, onların yeniliklərə uyğun şəkildə dərslər keçməsi tələbə dostların dərslərə marağını da artırıb. Tədris ilinin ilk həftəsində dərslərin uğurlu şəkildə baş tutduğunu görmək mümkündür. Tələbə Nəzarət Qrupu olaraq növbəti dərslərdə də iştirak edəcəyik. Eyni zamanda tələbə dostlarımızla sosial şəbəkələr vasitəsilə əlaqələr qururuq, onların narazı qaldığı halları qeydə alırıq. Fəaliyyətə başladığımız ilk gündən dediyimiz kimi, əsas məqsədimiz tələbə hüquqlarının qorunmasıdır. Bu bizim fəaliyyət prinsipimizdir və çox məmnunuq ki, universitet rəhbərliyi bizim üçün bu şəraiti yaradıb. Dəyərli müəllimlərimizi və əziz tələbə dostlarımızı yeni tədris ilinin başlanması münasibətilə təbrik edirəm. Yüksək nəaliyyətlər və uğur diləyirəm."



***Fizika fakültəsinin IV kurs tələbəsi Salmanlı Aynurə:*** "Bakı Dövlət Universitetində yeni tədris ilinin başlaması münasibətilə müəllimlərimizi və tələbə dostlarımı təbrik edirəm, onlara təhsil həyatında uğurlar arzulayıram. Bildiyimiz kimi, artıq ikinci həftədir ki, yeni tədris ilinə start verilib. Bütün dərslərimiz maraqlı, maarifləndirici və əyləncəli şəkildə keçirilir. Fakültə dekanları, tyutorlar və professor-müəllim heyəti daim tələbələri dinləyir, onlara kömək göstərirlər. Tələbələrimiz dərslərdə fəal iştirak edirlər."



***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin IV kurs tələbəsi Mirməhəmməd Hüseynov:*** "Pandemiya səbəbilə Universitetimizdə dərslərin onlayn tədrisi başlandı. Tələbə Nəzarət Qrupunun üzvü olaraq onlayn dərslərə nəzarətin həyata keçirilməsini təmin etmək və tələbələrin təkliflərini dinləmək önəliyimizdir. Onlayn dərslərin keçirilməsi zamanı istisna hallarda tələbələrin internet problemləri olur, bu zaman isə, fakültə rəhbərliyi və müəllim heyəti problemin aradan qaldırılması üçün lazımi tədbirləri görürlər. Dərs ilinin yeni başlamasını nəzərə alsaq, artıq distant təhsilin faydalarını görməyə başlamışıq. Tələbələrin həm ixtisas üzrə, həm də sosial fəaliyyətlərinin onlayn həyata keçirilməsi üçün lazımi proqramlar hazırlanmış, bunlara əsasən də distant təhsilin imkanlarından yararlanmağa Universitetimizdə bütün şərait yaradılmışdır. Artıq tələbə və müəllimlərin distant təhsilə adaptasiyası və Universitetimizin bu platformada da, ilkin yerdə qərarlaşması, birbaşa Universitet rəhbərliyinin tələbələrimizə qayğısı və təhsilin davamlı inkişafına verdiyi töhfənin nəticəsidir."



***Fizika fakültəsinin IV kurs tələbəsi Qənbərova Sevinc:*** "Tələbə Nəzarət Qrupunun üzvü olaraq hər bir tələbəni yeni tədris ilinin başlaması münasibətilə təbrik edirəm. Təbii ki, hər bir tələbə ənənəvi qaydada doğma universitetimizdə təhsilinə davam etmək istəyir. Amma onlara bu çətin dövrdə Universitetimizin yaratdığı imkanlardan maksimum dərəcədə istifadə edərək virtual dərslərdə iştirak etməyə çağırıram. TNQ olaraq biz də virtual dərslərin başlanması ilə fəaliyyətimizə davam edirik. Demək olar ki, bütün tələbələr virtual dərslərə qatılırlar. Müəllimlər tələbələrin mövzuları tam qavraması üçün əlavə materiallar hazırlayaraq dərslərə başlayıb. Belə ki, hazırladıqları müxtəlif prezentasiyalar, elektron dərs vasitələri ilə tələbələrin mövcud vəziyyətdə mümkün qədər yüksək səviyyədə təhsilinə davam etməsi üçün əllərindən gələni edirlər. Dərslərlə bağlı yaranmış problemlər fakültə dekanları, dekan müavinləri, tyutorlar tərəfindən həll edilir. Biz də dərslərdə iştirak edərək, tələbələrlə sosial şəbəkələr vasitəsi ilə əlaqə yaradır, onların problemlərini həll etməyə çalışırıq."

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Həmid Vəliyev
Allahverdi Məmmədli
Nəsir Əhmədli

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.09.2020
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.